# "Dövlət idarəçiliyi islahatları müddətində potensial quruculuğu" mövzusunda beynəlxalq konfrans keçirilib

**9-10 iyul tarixlərində "Fairmont Baku" otelinin "Nizami Gəncəvi" zalında "Dövlət idarəçiliyi islahatları müddətində potensial quruculuğu" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.**



Konfransda 25 ölkənin dövlət qulluğu sahəsində ixtisaslaşmış qurumlarının və təlim mərkəzlərinin rəhbər vəzifəli şəxsləri, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, Azərbaycan Respublikasının dövlət qurumlarının təmsilçiləri, kütləvi informasiya vasitələrinin nümayəndələri, Avropa İttifaqı, BMT-nin İnkişaf Proqramı (UNDP) və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) Bakı ofislərinin rəhbərləri və əməkdaşları iştirak etmişlər. Konfransın təşkilatçıları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və Dövlət Qulluğu sahəsində Regional Xab idi.

25 ölkənin dövlət qulluğu sahəsində ixtisaslaşmış qurumlarının və təlim mərkəzlərinin rəhbər vəzifəli şəxsləri və nümayəndələri açılış günü əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmiş, ulu öndərin məzarı önünə çiçəklər qoymuş, onun xatirəsini böyük ehtiramla yad etmişlər. Sonra qonaqlar Şəhidlər xiyabanında olmuş Azərbaycanın azadlığı və suverenliyi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət etmiş və onların xatirəsinə ucaldılmış "Əbədi Məşəl" abidə kompleksinin önünə əklil qoymuşlar.

Beynəlxalq tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri Bəhram Xəlilov iştirakçıları salamlayaraq onlara ölkəmizdə dövlət qulluğu sahəsində həyata keçirilən islahatlar haqqında ətraflı bilgi verib. Eləcə də B.Xəlilov çıxışında diqqətə çatdırıb ki, son illər ardıcıl həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda dövlət qulluğu sahəsində əksər neqativ halların qarşısı alınıb: "Dövlət qulluğu sahəsində artıq şəffaflığı təmin edə bilmişik. Biz eyni zamanda, 2014-cü ildən etibarən dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsini aparırıq. Burada müəyyən problemlər var. Belə görüşlər həm bizim üçün, həm də bizim qonaqlar üçün çox faydalı olacaq. Bu konfransda bizim yeni qonaqlarımız var. Konfransın təşkilində göstərdiyi dəstəyə görə Avropa İttifaqına öz təşəkkürümü bildirirəm". Bəhram Xəlilov dövlət qulluğuna qəbulla bağlı keçirilən müsabiqə və müsahibə mərhələlərinə toxunarkən bildirib ki, qurumun müsahibə komissiyalarına müstəqil ekspertlər daxil edilib. Xüsusilə korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının nümayəndələri şəxsən vətəndaşın vakant dövlət qulluğu vəzifəsinə uyğun olub-olmamağına qərar verirlər. Müsahibələrin video çəkilişi aparılır. Apelyasiya komissiyası vasitəsi ilə müsabiqədə iştirak edən vətəndaş ora müraciət edə bilər.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident əlaqələndiricisi Antonius Broek qonaqları salamlayaraq onların konfransda iştiraklarından məmnunluq duyduğunu dilə gətirib: "BMT-nin İnkişaf Proqramı üçün əhalinin ehtiyaclarına uyğun şəkildə dövlət qulluğunun təşkil edilməsi və qurulması mühüm və vacib məsələdir. Güclü və səmərəli dövlət quruculuğunun təşkili üçün bu tədbir böyük əhəmiyyət kəsb edəcək. Bəzi dövlətlər bu sahədə nailiyyətə çatmaq üçün mühüm siyasət həyata keçirirlər. BMT-nin İnkişaf Proqramının təşkilatçıları hesab edirlər ki, bu sahədə işlər davam etməlidir. Dövlət qulluqçuları üçün təlim mərkəzinin yaradılması Azərbaycanda peşəkar dövlət qulluqçularının formalaşmasına dəstək verəcək".

Azərbaycan və Avropa İttifaqı arasındakı əlaqələrin səmərəli şəkildə davam etdiyini xüsusi olaraq vurğulayan Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin Əməkdaşlıq Sektorunun rəhbəri Jeroen Villiems qeyd edib ki, bu mənada Avropa İttifaqı öz qonşuluq siyasətini yeniləməkdədir. "Bu yeni siyasət hazırda formalaşmaqdadır. Ölkələrin qarşılıqlı maraqlarında olan sahələrə diqqət artırılmalıdır. Azərbaycanla münasibətlərə fərqli yanaşma əlaqələrin inkişafına təsir göstərəcək. Keçən il biz viza ilə bağlı saziş imzalamışıq. Hazırda strateji tərəfdaşlıq barədə sazişi nəzərdən keçiririk. Biz bu qurumların potensialının artırılmasına diqqət ayırırıq. Dövlət qulluğundan insan resurslarının artırılması çox önəmlidir və bu istiqamətdə də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ilə sıx əməkdaşlıq edirik. Biz Azərbaycanda təlim mərkəzinin yaradılmasına şərait yaratmışıq. Komissiya artıq beynəlxalq qurumlarla uğurlu əlaqələr qurub və bugünkü tədbir bunun bariz nümunəsidir. Avropa İttifaqında ümumi daxili məhsul (ÜDM) və iş yerlərinin 50 faizi dövlət qulluğu sahəsi ilə bağlıdır" - deyə Jeroen Villiems bildirib.

Jeroen Villiems eləcə də deyib ki, Azərbaycanın Aİ ilə əməkdaşlığı uzun illərdir davam edir: "Avropa İttifaqı "Şərq Tərəfdaşlığı" proqramına daxil olan 6 ölkə ilə ikitərəfli münasibətləri davamlı şəkildə inkişaf etdirir. Yeni siyasət formalaşmaqdadır. Bunun üçün Azərbaycan və digər ölkələrdən təkliflər almaqdayıq. Bu məsələdə 3 əsas amil var ki, bunlar ehtiyaclara uyğunlaşdırılmış yanaşmanın tətbiqi, məsləhətləşmələrdə özünü göstərən vacib məsələlərə qarşılıqlı maraqlara uyğun formada diqqət yetirilməsi və sahiblik məsələsidir".

Almaniyanın Azərbaycandakı səfiri Haydrun Tempel I Avropa Oyunların uğurlu təşkilatçılığına görə Azərbaycanı təbrik edib. "Bizim Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyası ilə bağlı qanunvericilik sahəsində möhtəşəm əməkdaşlığımız olub. Bu böyük bir çağırışdır. Konfransda çoxsaylı dövlət qulluqçuları iştirak edir. Müsbət hədəfləri tapmağa çalışmalıyıq".

Çıxışlardan sonra tədbir "Dövlət qulluqçularının potensialının inkişafına qoyulan investisiyaların geri qayıtması" və "Dövlət idarəçilik islahatları nəticəsində dövlət qulluğunda mədəni dəyişikliklər" mövzusunda plenar sessiya ilə davam edib.

Konfransın ikinci günündə isə "Regional platformalar dövlət qulluqçularının potensialının artırılmasında alət kimi" və "Dövlət idarəçiliyi islahatları çərçivəsində dövlət qulluğu üzrə təlim mərkəzlərinin yaradılması" mövzularında təqdimatlar olub və mövzular ətrafında müzakirələr aparılıb.

Konfrans "Hərtərəfli İnstitusional Quruculuq Proqramının İnstitusional İslahat Planının həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya Dəstək" layihəsi çərçivəsində həyata keçirilmişdir. Konfransın keçirilməsindən əsas məqsəd - dövlət idarəçiliyi sistemində aparılan islahatlar nəticəsində dövlət qulluqçularının peşəkarlığının artırılması sahəsində əldə olunan təcrübənin mübadilə edilməsi idi.

**Cəmilə Əsgərxanqızı**